AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

ƏCZAÇILIQ TEXNOLOGİYASI VƏ İDARƏÇİLİYİ

Kafedrası

# 1 MÜHAZİRƏ

# ƏCZAÇILIQ İQTİSADİYYATINA GİRİŞ.

# MİKRO- VƏ MAKROİQTİSADİYYAT.

# ƏCZAÇILIQ MÜƏSSİSƏSİ MİKROİQTİSADİYYATININ OBYEKTİ KİMİ.

# ƏCZAÇILIQ MÜƏSSİSƏNİN İQTİSADİ RESURSLARI.

**DOS. CƏLİLOVA K.İ**

# Mühazirənin planı

- *«İqtisadiyyat» anlayışı*
- *İqtisadiyyatın inkişaf mərhələləri*
- *İqtisad elminin tarixi təkəmülü*
- *İqtisadiyyatın tərifi, funksiyası, predmetı*
- *İqtisadiyyatın vəzifələri, əsas prinsipləri*
- *İqtisadiyyatın qarşısında duran problemlər*
- *Makro – və mikroiqtisadiyyat*
- *İqtisadi resurslar*
- *Əczaçılıq iqtisadiyyatı*
- *Əczaçılıq iqtisadiyyatının prinsipləri*
- *Aptek - əczaçılıq bazarının iqtisadi subyekti kimi*

“İqtisadiyyat – oykonomiya” adını ilk dəfə qədim yunan filosofu Ksenofont (e.ə. 450- 355) tərəfindən onun “Ev təsərrüfatı”, yaxud “Ev iqtisadiyyatı”adlı əsərində işlədilmişdir.



Daha sonra yunan filosofu Aristotel (e.ə. 384-322) bu anlayışı bir qədər geniş izah etməyə çalışmışdır.



2 Ksenofontun ifadə etdiyi “oykonomiya” “oykos” – ev təsərrüfatı və “nomos” – qayda-qanun yaxud təlim mənasında verilmişdir, yəni ev təsərrüfatının idarə edilməsi qaydaları anlamını verir.

# İqtisadiyyatın inkişaf mərhələləri









| | | | |
|---|---|---|---|
| «Sərvətlər» və ya «Dəyər» konsepsiyası (1776) Adam Smit | «Rifah» konsepsiyası (1890) Alfred Marşall | «Qıtlıq» və ya «Çatışmazlıq» konsepsiyası (1932) Lionel Robbins | «İnkişaf» konsepsiya (1948) P.A.Samuelson |

# İqtisadiyyatın inkişaf mərhələləri



- Özünün **iqtisadi sistemini** yaratmişdir..
- Siyasi iqtisadın məqsədi xalqın varlanmasını təmin etməkdir.
- Onun məşhur **“görünməz əl”** (tələb təklif, rəqabət mənasinda) bazarı idarə edir



- İqtisadi hadisələr təkcə əmək-dəyər baxımından deyil, subyektiv psixoloji və faydalılıq baxımından qiymətləndirilməyə başladı
- İqtisadiyyat – sosial elmdir
- Yeni əmtəə və xidmətlərin yaradilması prosesini öyrənən bir elmdir
- İnsanlarin rifahı haqqında bir elmdir
- Yalnız iqtisadi fəaliyyəti öyrənir



- İqtisadiyyat insan davranışını öyrənir
- İnsanların tələbatı sonsuz, resursları məhduddur
- Resurslar fərqli, alternativ istifadə oluna bilər
- İqtisadiyyat – pozitiv bir elmdir



-Əsas nailiyyətlərindən biri kimi qiymətin formalaşması, tələb və təklif arasında qarşılıqlı əlaqənin analizinə riyazi metodları tətbiqi

# İqtisad elminin tarixi təkamülü

**Klassik siyasi iqtisad məktəbi**

**U.Petti (1623-1687)**

"Sərvətin atası əmək, anası isə torpaqdır" sözləri bu məktəbin ən mühüm xidməti sayılan **əmək-dəyər nəzəriyyəsinin** yığcam ifadəsidir

**A.Smit (1723-1790)**

A.Smitin "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında" (1776) əsərində özünün **iqtisadi sistemini** yaratmışdır.. Onun məşhur **"görünməz əl"** (tələb təklif, rəqabət mənasında) bazar idarə edilməlidir  fikri iqtisadiyyatın dövlət tənzimlənməsində inzibati yox iqtisadi metodların önəmli olmasını nəzərdə tuturdu. O, qeyd edirdi ki, dövlətin işi bazarın işinə qarışmaq yox, onun normal fəaliyyəti üçün əlverişli şərait yaratmaq, istehsalçıların və bütün ölkə vətəndaşlarının azad, sərbəst fəaliyyətini qorumaqdır.

**D.Rikardo (1772-1823)**

D.Rikardonun "siyasi iqtisadın və vergi qoyulmasının əsasları" (1817) əsərində A.Smitin insanların şəxsi maraq, fayda əldə etmək, bazarda sərbəst rəqabət haqqında fikirləri daha da genişləndirilib inkişaf etdirilmişdir. D.Rikardo iqtisadi nəzəriyyənin **pul, onun tədavülü, kredit münasibətləri, vergi məsələlərinə** dair elmi-nəzəri fikirlər irəli sürmüşdür.

# Qıtlıq konsepsiyası



# İqtisadiyyat nədir?

İqtisadiyyat - ev təsərrüfatını idarə etmək qabiliyyətidir, qayda-qanunların məcmusudur

İqtisadiyyat - məhdud resurslar və artan (sonsuz) tələbatlar şəraitində istehsal etmək qabiliyyətidir

İqtisadiyyat - ictimai istehsalın – istehsal, bölgü, mübadilə və istehlak kimi mərhələlərini əhatə edən fəaliyyət sferasıdır

İqtisadiyyat-istehsal münasibətləridir. İqtisadi maraqların reallaşdırılması üçün iqtisadi fəaliyyətdir

İqtisadiyyat – axtarış və fəaliyyətin seçim üsuludur.

**İqtisadiyyat** – insanların tələbatının təmin etmək üçün istifadə etdikləri maddi və mənəvi aləmdə mövcud olan bütün vasitələrin məcmusudur.

**İqtisadiyyat** insan fəaliyyətinin mühüm aparıcı sahəsidir və əsas funksiyası **məhdud resurslardan** səmərəli istifadə etməklə cəmiyyətin **artmaqda olan tələbatlarını** ödəməkdir

İnsanların maddi tələbatlarının maksimum səviyyədə ödənilməsinə yönəldilmiş, mövcud olan məhdud resurslardan effektiv istifadə olunmasının analizi **iqtisadiyyatın predmetini** təşkil edir

Əczaçılıq iqtisadiyyatı – xalqın sağlamlığının qorunmasına xidmət edən, dərman vasitələrinin istehsalı, bölüşdürülməsi, mübadiləsi ilə məşğul olan institutların, müəssisələrın və təşkilatların məcmusudur.

# İqtisadiyyatın elm kimi əsas vəzifələri:

- iqtisadi proseslərin və hadisələrin mahiyyətini aşkar etmək;
- onların qarşılıqlı əlaqə və qarşılıqlı bağlılığını göstərmək;
- insanların iqtisadi davranışlarının motivləri və mexanizmlərini, xüsusilə də iqtisadi fəaliyyət prosesində bir-biri ilə əlaqələrini müəyyənləşdirmək

# İqtisadiyyatın əsas prinsipləri

**1.Nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəsi**

**2. Mikro və makro təhlili birliyi**

**3. Real tarixcilik prinsipi**

# İqtisadiyyatın tərkib hissələri

Insanların və cəmiyyətin yaşayış qabiliyyətinin və həyat fəaliyyətinin təmin edilməsi – iqtisadiyyatdır

Pul və qiymət - iqtisadiyyatdır

İqtisadiyyat – təkrar istehsal prosesidir

İqtisadiyyat – insanların yaşayış vasitəsidir.

İqtisadiyyat – intellektual dəyərdir

İqtisadiyyat – məhdudluq, iqtisadi seçim və istehsal imkanları

**İQTISADIYYAT**

İqtisadiyyat – axtarış və fəaliyyətin seçim üsuludur.

Əmək və iş qüvvəsi iqtisadiyyatın insan resurslarıdır

İstehsal vasitələri – iqtisadiyyatın kapital resursudur

Torpaq, onun təki, faydalı qazıntılar, meşə, flora, fauna – İqtisadiyyatın təbii resurslarıdır

Insan iqtisadiyyatın ayrılmaz tərkib hissəsidir

İnfrastruktura – istehsalın və istehlakın normal fəaliyyətini təmin edən iqtisadi obyektdir

# İqtisadiyyatın əsas problemləri

1.Tələbatların sonsuzluğu (Fiziki,mənəvi,sosial)

2.Resursların məhdudluğu (əmək,torpaq,kapital)

3. Resursların səmərəli bölüşdürülməsi və istifadəsi

4.Seçim problemi: NƏ?  NECƏ? KİM ÜÇÜN?

# İqtisadiyyatın problemləri

- **Nə istehsal etmək?**

**Müəyyən dövrdə hər hansı iqtisadi sistemində mümkün məhsul və xidmətlərdən hansılar istehsal olunmalıdır.**

- **Necə istehsal etmək?**

**Hansı taxnologiyadan istifadə yolu ilə istehsal olunmalıdır**

- **Kim üçün istehsal etmək?**

**İstehsal olunacaq məhsul və xidmətləri kim alacaqdır.**

# İqtisadiyyatın növləri

| | Planlı iqtisadiyyat | Bazar iqtisadiyyatı | Qarışıq iqtisadiyyat |
|---|---|---|---|
| **Nə istehsal etmək?** | Hökümət müəyyənləşdirir (prioritetlər) | İstehlakçıların təlabatına uyğun | Hökümətin və istehlakçıların tələblərinə uyğun |
| **Necə istehsal etmək?** | Hökümət müəyyənləşdirir | İstehsalçıların maraqlarına uyğun (istehsalatın rentabelliyini nəzərə alaraq) | Hökümətin və istehsalçıların maraqları nəzərə alaraq |
| **Kim üçün istehsal etmək?** | Hökümət müəyyənləşdirir (dövlətin maraqları) | İstehlakçıların alıcılıq qabiliyyəti ilə müəyyənləşdirilir | Hökümət və istehlakçılar üçün |

# İQTISADIYYAT (miqyasindan asili olaraq) NÖVLƏRİ

- **Makroiqtisadiyyat** - hər bir ölkənin və regionun iqtisadiyyatının bütövlükdə öyrənilməsi, araşdırılması və təhlili deməkdir. Makroiqtisadiyyat səviyyəsində cəmiyyətin, ölkənin, milli iqtisadiyyatın problemləri dayanır. Burada ictimai məhsulun məcmuu, milli gəlirin kəmiyyəti, onların artımı, bölgüsü, sosial tələbatların təmin olunmaq səviyyəsi və s. kimi problemlərin öyrənilməsi və həlli yolları araşdırılır.
- Milli iqtisadiyyatın fəaliyyətinin prinsipləri və qanunlarını bütövlükdə öyrənən **makroiqtisadiyyat**
- Makroiqtisadiyatda bazarların məcmuu analiz edilir:

- Mal və xidmətlər bazarı
- İşçi qüvvəsi
- Qiymətli kağızlar
- Ümumdaxili məhsul həcni
- Məşğulluq səviyyəsi
- İşsizlik səviyyəsi
- İnflyasiya səviyyəsi və s.

# İQTISADIYYAT (miqyasindan asili olaraq) NÖVLƏRİ

- **Mikroiqtisadiyyat** - istehsalın və xidmətin müəssisə, firma səviyyəsində araşdırılması, təşkili və idarəedilməsi deməkdir. Müəssisədə, firmada, şirkət və s. istehsalın və xidmətin daha səmərəli qurulması modelləri seçilir, az xərclə daha çox və daha keyfiyyətli məhsul buraxılmasına çalışılır. Bu dairədə istehsal xərcləri, mənfəət, qiymət, əmək haqqı, tələb-təklif kimi iqtisadi amillərdən daha konkret şəkildə istifadə olunur və idarəetmədə daha çevik formalar seçilir.
- Fərdi təsərrüfat subyektlərinin (fiziki şəxslər, istehlakçılar, firmalar, təşkilatlar, bazarlar, sənaye) iqtisadi davranışını öyrənən mikroiqtisadiyyat bu göstəriciləri analiz edir

- Müəssisənin satış pulu
- İstehsal həcmi
- İşçilərin sayı
- Mala olan sorğu və s.

# İqtisadi resurslar

## İqtisadi resurslar

- **Əmək resursları** (məhsulun yaradılmasına istiqamətləndirilmiş insan fəaliyyəti )
- **Təbii (torpaq) resurslar** (torpaq, su, hava, faydalı qazıntılar, bitki və heyvanat aləmi, təbii energetik mənbələr və s)
- **Kapital (maddi pul resursları)**
  - **Fiziki kapital** (təsərrüfat fəaliyyətində istifadə olunan istehsalat vasitələri)
  - **Pul kapitalı** (maddi - əşyavi, əmək resurslarını əlde edilməsi üşün istifadə olunan pul vəsaiti)

# ƏCZAÇILIQ İQTİSADİYYATI

- **Əczaçılıq iqtisadiyyatı** - əczaçılıq yardımının göstərilməsi zamanı proseslərin gedişi və insanların qarşılıqlı hərəkəti mexanizmidir.
- **Əczaçılıq iqtisadiyyatı** – xalqın sağlamlığının qorunmasına xidmət edən, dərnan vasitələrinin istehsalı, bölüşdürülməsi, mübadiləsi ilə məşğul olan institutların, müəssisələrin, təşkilatların məcmusudur
- **Əczaçılıq iqtisadiyyatı** - əhalinin və MPM – nin digər müəssisələrin, təşkilatların əczaçılıq yardımına olan tələbatının maksimum səviyyədə ödənilməsi məqsədilə, məhdud DV və digər aptek çeşidi mallarından istifadə olunmasının və səmərəli idarə edilmə prosesinin tədqiqi ilə məşğul olan elmdir.

# Əczaçılıq İqtisadiyyatı

- Nə istehsal etmək?

Konkret bir dövrdə və iqtisadi sahədə hansi DV, hansı miqdarda və hansı keyfiyyətdə istehsal olunmalıdır

- Necə istehsal etmək?

Kim tərəfindən, hansı məhdud resurslardan istifadə edərək və hansı texnologiyaların köməyi ilə lazımi DV istehsal olunacağıdır

- Kim üçün istehsal etmək?

İstehsal olunacaq DV kim alacaq - araliq (həkim) və son (pasient) istehlakçılar arasında bölüşdürma necə olacaq

# Əczaçılıq İqtisadiyyatı

## Əczaçılıq iqtisadiyyatının prinsipləri

**ÜMUMİ PRİNSİPLƏR**

- Obyektiv iqtisadi qanunların tətbiqi
- Resursların məhdudluğu və tələbatın yüksək olması
- Əczaçılıq yardımına olan tələbatın təmin edilməsinin sosial üstünlüyü (sosial prioritetlər)

**XÜSUSİ PRİNSİPLƏR**

- İnsanların sağlamlığına şəxsi maraq
- Əczaşılıq yardımının göstərilməsində mövcud resurslardan səmərəli istifadə
- Meydana çıxan müxtəlif iqtisadi proseslərin miqdarının təyini

# Aptek - əczaçılıq bazarının iqtisadi subyekti kimi

## Kommersiya (ticarət) təşkilatı

**Əsas keyfiyyət parametrləri**

- Fəaliyyətin məzmunu və xarakteri
- Mülkiyyət forması
- Təşkilati – hüquqi statusu
- Rəqabətliyi

**Əsas kəmiyyət (miqdar) parametrləri**

- İş yerlərinin sayı
- İşçilərin sayı
- İllik mal dövriyyəsi

## Səhiyyə sisteminin təçkilatı

- Əczaşılıq xidməti ancaq diplomlu şəxslər tərəfindən yerinə yetirilir
- Aptek xüsusi mallar realizə edir. Bu malların keyfiyyətinə və saxlanılmasına böyük tələblər mövcuddur
- Vacib çeşidlərin yaradılması onların saxlanılma xərclərini artırır
- Apteklərdə dərmanların hazırlanma prosesi də artıq xəeclər tələb edir
- Apteklərin avadanlıqla təchizinə tələblər yüksəkdir

# Əczaçılıq iqtisadiyyatı

Təşəkkürlər